2011/2012-ci dərs ilində məktəblilərin fənn olimpiadalarını yüksək səviyyədə keçirmək, istedadlı şagirdləri üzə çıxarmaqla onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək sahəsində müəyyən işlər görülmüş, müvafiq təşkilati tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2006-cı il tarixli, 1414 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)"nın icrası ilə bağlı çap olunmuş "Elementar riyaziyyatın əlavə fəsilləri və olimpiadalar I kitab", "Elementar riyaziyyatın əlavə fəsilləri və olimpiadalar II kitab", "Riyaziyyatdan olimpiada iştirakçıları üçün 200 variant", "Kimyadan olimpiada məsələləri", «Uşaqlarda istedadın müəyyənləşdirilməsi və inkişaf etdirilməsi», "İstedadlı uşaqların psixoloji təminatı", "İstedadın psixoloji diaqnostikası" adlı vəsaitlərdən müəllim və şagirdlər səmərəli istifadə etmişlər.

Təhsil Nazirliyi kollegiyasının "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)"nın yerinə yetirilməsinin yekunları haqqında" 03.12.2011-ci il tarixli qərarının icrası ilə bağlı Nazirliyin 22.12.2011-ci il tarixli, 2154 nömrəli əmri ilə təsdiq olunmuş " 2012-2013-cü illərdə istedadlı uşaq və gənclərlə iş sahəsində həyata keçiriləcək tədbirlər üzrə Fəaliyyət Planı"ndakı tədbirlərin yerinə yetirilməsinə müntəzəm nəzarətin nəticəsidir ki, fənn olimpiadalarında əldə etdilən nəticələr əvvəlki illərlə müqayisədə daha yüksək olmuşdur.

Mövcud qaydalara uyğun olaraq, olimpiadalar üç mərhələdə keçirilmişdir. Rayon (şəhər) mərhələsinin I turunda 51800, II turunda 9173, Respublika turunda 1186 nəfər şagird iştirak etmişdir.

Olimpiadanın nəticəsi cədvəldə göstərilən kimi olmuşdur.

| Fənlər | İştirakçıların sayı | Qaliblərin sayı | | | | |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | I | II | III | IV |
| Azərbaycan dili və ədəbiyyat | 235 | 80 | 4 | 7 | 11 | 58 |
| Azərbaycan tarixi | 230 | 60 | 4 | 7 | 13 | 36 |
| Riyaziyyat | 196 | 70 | 4 | 7 | 13 | 46 |
| Fizika | 115 | 39 | 4 | 4 | 10 | 21 |
| Kimya | 143 | 58 | 6 | 8 | 12 | 32 |
| Biologiya | 213 | 98 | 4 | 8 | 11 | 75 |
| İnformatika | 54 | 22 | 5 | - | 8 | 9 |
| Cəmi: | 1186 | 427(36%) | 31(2.6%) | 41(3.5%) | 78(6.6%) | 277(23.3%) |

Fənn olimpiadalarının yekun turunda Naxçıvan MR-in, Bakı, Sumqayıt, Şirvan, Mingəçevir şəhərlərinin, Şəki, İsmayıllı, Tovuz, Şəmkir, Zaqatala, Qazax, Şamaxı, Cəlilabad, Quba, Hacıqabul, Siyəzən, Qax, Ucar, Ağdaş, Qəbələ, Abşeron, Yardımlı, Kürdəmir, İmişli, Beyləqan, Balakən, Göygöl, Salyan, Füzuli, Masallı, Lerik, Samux, Tərtər rayonlarından olan şagirdlər daha çox fərqlənmiş, mükafata layiq yerləri tutmuşlar.

Nazirlik nəzdindəki Heydər Əliyev adına, Akademik Zərifə Əliyeva adına, "Zəngi" liseylərinin, S.C.Pişəvəri adına humanitar fənlər gimnaziyasının, 132-134 nömrəli təhsil kompleksinin, "Ankara

məktəbi" məktəb-liseyin, BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyinin, BSU-nun nəzdindəki məktəb-lisey kompleksinin, Bakı şəhəri 26, 147, 160, 239, 264 nömrəli məktəblərin, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin, Naxçıvan şəhəri Heydər Əliyev adına, Şahbuz rayonu Kükü kənd, Şəmkir şəhəri M.Füzuli adına, Şirvan şəhəri 4, Şərur şəhəri 1, Siyəzən şəhəri 1 nömrəli tam orta məktəblərin, Sumqayıt şəhəri texniki və təbiət elmləri liseyinin, təbiət elmləri təmayüllü gimnaziyanın, Balakən rayonu texniki və humanitar, Şamaxı rayonu texniki, təbiət və humanitar təmayüllü liseylərin, Zaqatala rayonu humanitar fənlər gimnaziyasının şagirdləri daha yaxşı nəticə göstərərək qaliblər sırasında olmuşlar.

Qaliblərin sayı baxımından respublikada fəaliyyət göstərən «Çağ» Öyrətim İşlətmələri Şirkətinin Azərbaycan-Türkiyə özəl liseylərinin şagirdləri fənn olimpiadalarının yekun turunda üstünlük təşkil etmişlər. Belə ki, bu liseylərin 31 nəfər şagirdi I-IV yerlərə, o cümlədən 10 nəfər I, 8 nəfər II, 6 nəfər III, 7 nəfər IV yerə layiq görülmüşdür.

Fənn olimpiadalarının təşkili və keçirilməsində görülmüş işlərlə yanaşı, bir sıra rayonlarda bu vacib işə laqeyd və səhlənkar yanaşma hallarına da yol verildiyi aşkarlanmışdır. Belə ki, Ağcabədi, Daşkəsən, Beyləqan, Qazax, Abşeron, Cəbrayıl, Xızı, Şabran, Sabirabad, Zəngilan, Ağstafa, Füzuli rayonlarından fizika və kimya fənlərindən, Samux, Gədəbəy, Ağdam, Qusar, Bərdə rayonlarından fizikadan, Xaçmaz, Neftçala, Qobustan, Göygöl, Salyan rayonlarından kimyadan, Cəbrayıl, Zərdab, Göygöl, Daşkəsən rayonlarından riyaziyyatdan, Şabran, Qubadlı rayonlarından riyaziyyat və biologiyadan, Laçın rayonundan biologiyadan olimpiadanın yekun turunda bir nəfər də iştirakçı olmamışdır. Kəlbəcər və Xocavənd rayonlarının hər birindən isə yalnız 1 nəfər iştirak etmişdir.

Məktəblərin kompyuterlərlə təmin olunmasına baxmayaraq, informatika fənni üzrə olimpiadanın yekun turunda Gəncə, Şirvan, Naftalan şəhərlərindən, Abşeron, Xaçmaz, Neftçala, İmişli və Samux rayonları istisna olunmaqla digər rayonlardan iştirakçı olmamışdır.

Ağsu, Ağdam, Qobustan, Daşkəsən, Qubadlı, Kəlbəcər rayonlarından bir nəfər olsun belə mükafata layiq yer tutmamışdır.

O da müəyyən edilmişdir ki, I və II rayon (şəhər) turlarında seçimin qeyri- obyektiv aparılmasının nəticəsidir ki, olimpiadanın yekun turunda riyaziyyatdan Bakı şəhəri 7, 91, 152, 236, 261, 314 nömrəli tam orta məktəblərin, 287 nömrəli "Zəkalar" liseyinin, BSU-nun nəzdindəki məktəb-lisey kompleksinin, Gəncə şəhəri 17, 27 nömrəli, Ağcabədi rayonu Hüsülü kənd tam orta məktəblərinin, Mingəçevir şəhəri texniki və humanitar liseyin, fizikadan Bakı şəhəri 3, 285, Gəncə şəhəri 17, 32, Göyçay şəhəri 3, Ağsu şəhəri 1, Laçın rayonu 37, Salyan şəhəri 2, Tərtər şəhəri 2 nömrəli, Hacıqabul şəhəri 5 nömrəli, Qobustan rayonu Dərəkənd kənd, kimyadan Bakı şəhəri 12, 177, 192, 285 nömrəli, Yevlax rayonu Salamabad kənd tam orta məktəblərinin, Şəki Azərbaycan-Türkiyə Özəl, Şirvan Özəl Türk Liseylərinin bəzi şagirdləri çox aşağı nəticə göstərərək «0-10» bal toplamışlar.

Göstərilənləri nəzərə alaraq

**ƏMR EDİRƏM**

1. Məktəblilərin 2011/2012-ci dərs ilində fənn olimpiadalarının nəticələri haqqında münsiflər heyətləri sədrlərinin təqdimatları nəzərə alınsın.

2. Fənn olimpiadalarının yekun turunda Naxçıvan MR-in, Bakı, Sumqayıt, Şirvan, Mingəçevir şəhərlərinin, Şəki, İsmayıllı, Tovuz, Şəmkir, Zaqatala, Qazax, Şamaxı, Cəlilabad, Quba, Hacıqabul, Siyəzən, Qax, Ucar, Ağdaş, Qəbələ, Abşeron, Yardımlı, Kürdəmir, İmişli, Beyləqan, Balakən, Göygöl, Salyan, Füzuli, Masallı, Lerik və «Çağ» Öyrətim İşlətmələri Şirkəti Azərbaycan-Türkiyə özəl liseyləri şagirdlərinin uğurlu nəticələri qeyd edilsin.

3. Lənkəran, Ağstafa, Ağsu, Qobustan, Daşkəsən, Yevlax, Xocavənd, Qubadlı, Kəlbəcər, Bərdə, Ağdam, Neftçala rayon təhsil şöbələrinin fənn olimpiadalarına hazırlıq sahəsində lazımi əməli tədbirlər həyata keçirmədikləri həmin rayonların təhsil şöbə müdirlərinin nəzərinə çatdırılsın.

4. Naxçıvan MR Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri, Nazirlik nəzdindəki və özəl ümumitəhsil müəssisələrinin direktorları Nazirliyin 22.12.2011-ci il tarixli, 2154 nömrəli əmri ilə təsdiq olunmuş "2012-2013-cü illərdə istedadlı uşaq və gənclərlə iş sahəsində həyata keçiriləcək tədbirlər üzrə Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin icrasına, istedadlı şagirdlərin aşkara çıxarılmasına, onlar üçün səmərəli təhsil şəraitinin yaradılmasına, fənn olimpiadalarının təşkili və keçirilməsinə xüsusi diqqət yetirsinlər.

5. İqtisadiyyat şöbəsi (Ş.Əliyev) şagirdlərin fənn olimpiadalarına hazırlığında səmərəli fəaliyyət göstərmiş və 2012-ci ildə keçirilən olimpiadalarda şagirdləri I dərəcəli diploma layiq görülmüş müəllimlərin hər birinin 150 (yüz əlli), olimpiadaların keçirilməsi, materialların hazırlanması, işlərin yoxlanılmasında xüsusi əmək sərf edən respublika münsiflər heyəti sədrlərinin hər birinin 140( yüz qırx), məsul katiblərin hər birinin 100 (yüz), üzvlərin hər birinin 70(yetmiş) manat pul mükafatı ilə mükafatlandırılmasını təmin etsin.

7. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin «Azərbaycan müəllimi» qəzetində dərc olunmasını təmin etsin.

8. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Əsas: Təhsil Nazirliyinin "Fənn olimpiadalarının yekun turunun keçirilməsi haqqında" 14.02.2012-ci il tarixli, 210 nömrəli əmri. Fənn olimpiadalarının xərclər smetası.

***Misir Mərdanov***

***Azərbaycan Respublikasının təhsil naziri***

***18 may 2011-ci il***

***№ 829***